# "Pedaqogika" fənninin tədrisinin optimallaşdırılması məsələlərinə dair

**Sevinc Leffk qızı Axundova**
*Bakı Slavyan Universitetinin dosenti,*
*pedaqogika üzrə fəlsəfə doktoru,*
**E-mail:** seva_axundova@inbox.ru

**Rəycilər:** p.ü.e.d., prof. K.A. Məmmədov,
p.ü.f.d., dos. K.Ə. Səmədov

**Açar sözlər:** optimallaşdırma, pedaqogika, tədris, təhsilin keyfiyyəti, intensivləşdirmə, bilik, bacarıq, İKT, ali məktəb, tədqiqat

**Ключевые слова:** оптимизация, педагогика, преподавание, качество образования, интенсификация, знания, умения, ИКТ, высшая школа, исследование

**Key words:** optimization, pedagogy, teaching, quality of education, intensification, knowledge, skills, IKT, high school, research

Təhsil cəmiyyətin istiqamətverici qüvvəsi kimi öz mühümlüyünü təsdiqləmiş və onun inkişafına daima təsir etmişdir. Keyfiyyətli təlimin təşkili təhsil prosesinin müvəffəqiyyət göstəricisidir. Yüksək səviyyədə olan təhsil cəmiyyətin tələblərini tam ödəməlidir. Təhsilin keyfiyyətinin yüksəldilməsi tədris prosesinin optimallaşdırılmasından çox asılıdır. Optimallaşdırma pedaqoji prosesin dialektik təbiətindən irəli gəlir: pedaqoji işə standartlıq, universallıq yaddır (6, s.101).

Təlim prosesinin fənlərin tədrisinin optimallaşdırılmasının əsas məqsədi keyfiyyətli təhsili həyata keçirməkdir. Keyfiyyətli optimallaşdırılmış tədris aşağıdakı meyarlar ilə xarakterizə edilir:

- Təlim zamanını artırmadan öyrənənlərə lazımi bilik, bacarıq və vərdişlər aşılamaq;
- Təhsilinalanların təhsilinə az vəsait sərf etməklə, səmərəli metodların tətbiqi əsasında cəmiyyətin tələblərinə cavab verən mütəxəssislər yetişdirmək;
- Təlim prosesində təhsilalanların idrak fəallığını yüksəltmək, onların müstəqilliyini artırmaq və s.

Bunun üçün təhsilalanlara yüksək əxlaqi davranış, ümumbəşəri mədəniyyət, əməksevərlik, yaradıcı təşəbbüskarlıq, işgüzarlıq, ictimaiyyətçilik və s. bu kimi xüsusiyyətlərin aşılanması əsasdır. Bu halda aşılanan bilik, bacarıq və vərdişlərin məzmunu əsas rol oynayır.

Göstərilən şərtləri həyata keçirmək üçün təlim prosesi, o cümlədən fənlərin tədrisi planlaşdırılmalı, plana uyğun optimallaşdırılmalıdır. Optimallaşdırılmanın vəzifələrinə aşağıdakılar aid edilir:

- Fənlərin tədrisinin optimallaşdırılması imkanlarının aşkar edilməsi;
- Tədrisin optimallaşdırılmasının məqsəd və vəzifələrinin müəyyən olunması;
- Məzmunun, təlim strategiyalarının optimal fəaliyyətinin təmin edilməsi;
- Tədris prosesinin optimallaşdırılması yollarının tədqiq olunması (3, s. 234, 235).

Tədris prosesinin optimallaşdırılmasının əsas vəzifələrini həyata keçirmək üçün pedaqoji işçilər bir sıra bilik və bacarıq nümayiş etdirməli olurlar:

- Dövlətin təhsil siyasətini, rəhbər təhsil orqanlarının qərar və göstərişlərini yerinə yetirir;

- Tələbələrin proqramın tələbləri səviyyəsində bilik almalarını təmin edir;
- Dərslərdə İKT-ni müvəffəqiyyətlə tətbiq edir;
- Tədrisin təşkilində milli zəminə və ümumbəşəri dəyərlərə, mənəvi sərvətlərə əsaslanır;
- Tələbələrin peşə-ixtisas səviyyəsini, pedaqoji ustalığını, ümumi mədəniyyətini yüksəltməyə səy göstərir (6, s. 70-71);
- Yeniləşən pedaqoji və psixoloji ədəbiyyatı müntəzəm olaraq öyrənir, onlardakı yeni ideyalara istinad edir;
- Tədrisə çəkilən xərci, sərf olunan vaxtı, vəsaiti hesablamaq, müqayisə aparmaq, mümkün qədər azaltmaq və s. bacarıqları nümayiş etdirir (5, s. 244, 245).

Dərslərin müşahidəsindən məlum oldu ki, təhsilverənlər tədrisdə optimallaşmaya nail ola bilmirlər.

Təlimin, fənlərin tədrisinin optimallaşdırılması probleminin həllini çətinləşdirən amillərə aşağıdakıları aid etmək olar:

- Pedaqogika fənninin məzmununun yeniləşməsinə, təkmilləşdirilməsinə az əhəmiyyət verilməsi;
- Rəhbərlik tərəfindən fənlərin tədrisinin optimallaşdırılması ilə təlimin keyfiyyətinin yüksəldilməsi məsələsinə ciddi nəzarət edilməsi;
- Fənn üzrə açıq dərslərin dinlənilib, müzakirə edilməsi və qabaqcıl təcrübənin yayılmasına az əhəmiyyət verilməsi;
- Tədrisdə müasir təlim metodlarının tətbiqinin nəzərə alınmaması;
- Dərslərdə yeni təlim texnologiyalarının tətbiqinə ciddi yanaşılmaması; nəzərə alınmaması;
- Pedaqogikadan açıq dərslərin təşkil edilib, müzakirəyə çıxarılmaması;
- Tədrisin optimallaşdırılmasının əsas şərtlərindən biri olan dərsin intensiv idarə olunması işində müəllimlərə metodik yardımın göstərilməsi;
- Fənlərin tədrisində təlimin təşkil formalarından mühazirələrə daha çox yer verilməsi və s. Göstərilən çatışmamazlıqlar tələbələrin fəallığını təmin etmir, tədrisin optimallaşdırılmasına mənfi təsir göstərir. Təlimin keyfiyyətinin yüksəldilməsini çətinləşdirir, təlimdən gözlənilən nəticələrin əldə olunması imkanlarını azaldır.

Göstərilən çatışmazlıqların aradan qaldırılması bir sıra tədbirlərin gecikmədən həyata keçirilməsini labüd edir. Rəhbərlik və müəllimlər üçün təlimin, tədrisin optimallaşdırılmasının imkan və səmərəli yollarını əks etdirən tədqiqatların aparılmasına, elmi-pedaqoji ədəbiyyatların nəşr olunmasına ehtiyacı artırır.

Ali məktəblərdə dərslər, xüsusilə pedaqogika dərsləri dinlənilməli, müzakirə edilməli, nöqsanlar obyektiv olaraq üzə çıxarılmalı və aradan qaldırılması yolları müəyyən edilməlidir.

Ali məktəblərə isə təcrübəli, savadlı, elmi dərəcəli müəllimlər qəbul edilməlidir. Bu sahədə qabaqcıl təcrübə daim öyrənilməli, konfrans və seminarlara çıxarılmalıdır. Dərslərin əyaniliklərlə İKT ilə təchizatı yaxşılaşdırılmalıdır.

Problemlə bağlı inkişaf etmiş ölkələrin təcrübələri öyrənilməli və müsbət cəhətlərin tətbiqi həyata keçirilməlidir.

Tədqiqatdan belə nəticəyə gəlindi ki, tədrisin optimallaşdırılması üçün dərslərin intensiv idarə edilməsi, vaxtdan, əyanilikdən qənaətlə istifadə olunması müəllimlərin və digər kadrların obyektiv seçilməsi əsas şərtlərdəndir. Eyni zamanda ali məktəblərdə aparılan tədris prosesi aşkarlıq, şəffaflıq və demokratik prinsiplər əsasında qurulmalıdır.

İş təcrübəsi ilə tanış olduğumuz müəssisələrdə vəziyyət ümumiləşdirildi, nəticə çıxarıldı

ki, problem tam həllini tapmamışdır. Ali məktəblərdə tədrisin optimallaşdırılması işdə olan nöqsanların aradan qaldırılması, fənlərin tədrisində vaxta qənaət etmək təlimin səmərəli idarə olunması ilə həyata keçirilə bilər.

Təlimin, fənlərin tədrisinin optimallaşdırılmasına bir sıra tələblər qoyulur. Tələblərin ödənilməsi təlimin intensiv idarə edilməsindən, səmərəli metod, forma və yolların seçilməsindən çox asılıdır.

Məzmunu təşkil edən hər bir mövzu, onun tədris prosesi optimallaşdırılmalıdır. Motivasiya yaradıldıqda diqqət problemin həllinə yönəldilir, təhsilalanlar tədqiqata cəlb edilir. Tədqiqatdan əldə olunan nəticələr auditoriya qarşısında təqdim edilir. Təqdimat ətrafında müzakirə aparılır və mövzu ümumiləşdirilir.

Mövzunun tədrisində tələbələrin hamısının fəal iştirakı əsas məsələdir. Dərsdə problemli situasiyalar yaradılır və müasir təlim metodlarından, yeni texnologiyalardan istifadə edilir. Bu metodların tətbiqi ilə dərsdə vaxtdan səmərəli istifadə etmək, tələbələrin fəallığını artırmaq, şüurluluğuna nail olmaq, onların idrak fəaliyyətinə və müstəqilliyinə geniş yer vermək, az vaxtda daha çox materialı öyrətmək mümkün olur.

Mövzunun tədris edildiyi dərsdə millilik, xəlqilik, bəşərilik təmin olunmalıdır. Tələbələrin inkişafı üçün diqqət mövzuya dair əlavə ədəbiyyatdan, kompüter məlumatlarından, internet resurslarından istifadə etməyə yönəldilməli, açıq, sərbəst fikir söyləməyə, tələbə-tələbə, müəllim-tələbə diskussiyasında fəal iştirak etmələrinə maraq oyadılmalıdır. Tələbələrin əldə etdiyi biliklərin zənginləşdirilməsi ilə yanaşı, praktikada tətbiqinə şərait yaradılmalıdır.

— Mühazirə və seminar məşğələlər, əyaniliklərlə, xüsusilə İKT avadanlıqları ilə tam təmin olunmalıdır. Dərsdə təlimin texniki vasitələrindən, müxtəlif cədvəllər, diaqramlar, qrafiklər, laboratoriya təcrübələri, kompüter, filmlər, diafilmlər, fotoşəkillər, çap materialları, lent yazıları, elektron dərsliklər, internet şəbəkə sistemi, slaydlar və s.-dən istifadə edilməsi mühiti yaradılmalıdır. Dərslərdə öyrənməyi öyrətmək məsələsi diqqət mərkəzində olmalıdır (4, s. 216, 217).

— Dərsin mərhələlərinə ciddi əməl olunmalı, və tədris səmərəli idarə edilməlidir (8, s. 404-405).

Təlim prosesinin, tədrisin optimallaşdırılmasının özünəməxsus xüsusiyyətləri vardır. Bunlara:

- Mövzunun təhsilalanlara şüurlu və planlı təsiri;
- Müəllimlə tələbə arasında səbəb-nəticə əlaqələrinin çoxşəkilliliyi;
- Optimallaşdırılan sistemin dinamikliyi;
- Etibarlılıq, optimallaşan sistemin müəyyən şəraitdə verilmiş funksiyaları həll etməsi;
- Davamlılıq, optimallaşan sistemin daxili və xarici amillərin təsirinə baxmayaraq, müəyyən olunmuş fəaliyyət rejimini saxlaması;
- Materialın həcmi ilə tədris vaxtının bir-birini tamamlanması;
- Tədrisin keyfiyyətinin intensiv yolla artırılması;
- Optimallaşmanın fasiləsizliyi, ardıcıllıqla reallaşdırılması və başqaları aiddir (3, s. 236).

Tədrisin optimallaşdırılması məqsədin qoyulması və vəzifələrin müəyyənləşdirilməsi ilə başlayır, onların həlli ilə başa çatır. Bundan sonra qarşıya daha faydalı məqsədlər qoyulur və fəaliyyət davam etdirilir.

Keyfiyyətli təhsil keyfiyyətli təlimdən, təlim isə onu optimal idarə edən müəllimdən asılıdır. Təlim prosesinin, fənlərin tədrisinin optimallaşdırılması o vaxt müsbət nəticə verir ki, müəllim özünü təlim prosesinin keyfiyyətinin yaxşılaşdırılmasına istiqamətləndirsin, bütün varlığı ilə bu işə bağlansın, təlimin keyfiyyətini yüksəltmək yollarını, vasitələrini axtarsın. O,

təlim prosesində, tədrisdə yeniliklərdən istifadə etmək bacarığına malik olsun, təlim zamanı onları tətbiq etsin.

Təlim prosesinin fənlərin tədrisinin optimallaşdırılmasında əsas məqsəd keyfiyyətli təhsili həyata keçirmək və tələbələri cəmiyyətin tələblərinə cavab verən şəxsiyyət, müəllim kimi formalaşdırmaqdır.

Təlimin, fənlərin tədrisinin optimallaşdırılmasında müəllimlərin üzərinə çox böyük vəzifələr düşür. O, mövzuları, fənnin materiallarını onun əsasında optimallaşdırma işini həyata keçirməli olur. Planlaşdırmada mövzunun tədrisi tarixi, həcmi, tətbiq edəcəyi metod və priyomlar, resurslar öz əksini tapmalıdır.

Pedaqogikanın tədrisinin optimallaşdırılması kimi aktual bir problem elmi-metodik ədəbiyyatda lazımi səviyyədə tədqiq olunmamışdır. Təhlil etdiyimiz əsərlərdə daha çox təlimin təşkilindən, təlim metodlarının tətbiqindən bəhs edilir. Onlarda problemin həllinə dair məsələlər əksini tapmamışdır. Ona görə də verilən tədbirlərin həyata keçirilməsi ilə bağlı ali məktəblərdə ciddi işlər aparılması lazım gəlir.

Fənlərin, o cümlədən pedaqogikanın tədrisinin optimallaşdırılması ilə bağlı qabaqcıl təcrübə öyrənilməli, yayılması üçün mətbuatdan və elektron KİV-dən istifadə olunmalıdır. Fənlərin xüsusilə pedaqogikanın optimallaşdırılmasına dair elmi-tədqiqat işləri aparılmalı onun həlli yolları tapılmalıdır. Pedaqoji ədəbiyyat işlənməlidir. Tədqiqatdan alınan nəticələr əsasında müəllimlərə metodik kömək edilərək təlimin keyfiyyəti yüksəldilməlidir.

**Məqalənin aktuallığı.** Təhsilin keyfiyyətinin yüksəldilməsi əbədi tədqiq olunan problemlərdəndir. Keyfiyyətli təhsil cəmiyyətin tərəqqisini, dövlətlərin inkişafını şərtləndirən mühüm vasitədir. Problem bir çox tədqiqatçıların, pedaqoqların diqqət mərkəzində saxlanılır. Təhsilin effektivliyinin yüksəlməsi bir sıra amillərdən təsirlənərək, tədris edilən fənlərin optimallaşdırılmasından da asılıdır. Ali məktəblərdə tədris edilən fənlərin, o cümlədən, pedaqogikanın tədrisinin optimallaşdırılması aktual məsələlərdəndir. Bu nöqteyi-nəzərdən, məqalədə tədqiq olunan məsələlər təhsildə baş verən dəyişiklərlə səslənərək, yeni tendensiyalara əsaslanaraq xüsusi əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Azərbaycanda ilk dəfə pedaqoji təmayüllü ali təhsil müəssisələrində tədris olunan Pedaqogika fənninin tədrisinin optimallaşdırma problemi tədqiq edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ali məktəblərdə tədris olunan Pedaqogika fənninin optimallaşdırmanın özünəməxsus xüsusiyyətləri, əsas şərtləri, optimallaşdırmanı çətinləşdirən səbəblər, bu işdə olan çatışmamazlıqlar və onların aradan qaldırılmasi ilə bağlı tövsiyələr verilir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (milli kurikulumu). Bakı, 2006.

2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. // Azərbaycan məktəbi, 2013, № 5.

3. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Bakı, 2013, s. 234-235.

4. Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı, 2007, s. 216-217.

5. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007, s. 244-245.

6. İsmixanov M. Pedaqogikanın əsasları. Bakı, BDU, 2011, s.70-71.

7. Колеченко А.К. Энциклопедия педагогических технологий. М.: СП, 2001.

8. Əhmədov H., Zeynalova N. Pedaqogika. Bakı, 2016, s. 404-405.

**С.Л. Ахундова**

## К вопросу оптимизации преподавания предмета «Педагогика» в высших учебных заведениях

### Резюме

В статье рассматриваются возможности и пути оптимизации преподавания предмета педагогика в высших учебных заведениях. Проведен анализ научно-педагогической литературы в области данной проблемы и обобщены результаты. Показаны возможности оптимизации преподавания предмета педагогика в высших учебных заведениях. Также рассмотрены трудности и недостатки в решении проблемы оптимизации преподавания курса педагогики. В исследовании конкретизированы требования к организационным формам обучения в высших учебных заведениях и обязанности преподавателей для успешного решения задач оптимизации. Даны рекомендации по решению данной проблемы.

**S.L. Akhundova**

## On the issue of optimizing the teaching of the subject of Pedagogy in higher educational institutions

### Summary

The article discusses the possibilities and ways to optimize the teaching of the subject of pedagogy in higher educational institutions. The analysis of scientific and pedagogical literature in the field of this problem is carried out and the results are obtained. The possibilities of optimizing the teaching of the subject of pedagogy in higher educational institutions are shown. The difficulties and shortcomings in solving the problem of optimizing the teaching of the course of pedagogy are also considered. The study specifies the requirements for organizational forms of training in higher education institutions and the responsibilities of teachers for the successful solution of optimization problems, are given the recommendations for solving this problem.

**Redaksiyaya daxil olub:** 09.04.2021